# Əmlak Məsələləri Dövlət Komitəsinin

# “Daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu” elektron xidmətinin

# İstifadə təlimatı

## Elektron xidmətdən istifadə.

Bu elektron xidmətdən istifadə etmək üçün Siz Əmlak Məsələləri Dövlət Komitəsinin *www.e-emdk.gov.az* elektron xidmətlər portalından (Şək.1) və ya *www.e-gov.az* Elektron Hökumət portalında Əmlak Məsələləri Dövlət Komitəsinin (Şək.2) təqdim etdiyi e-xidmətlərin siyahısından "***Daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu***" elektron xidmətini seçməlisiniz.




**Şəkil 1.**

***Qeyd:*** Bu xidmətdən istifadə etməmişdən əvvəl müəssisə və ya təşkilat öncədən öz səlahiyyətli nümayəndəsi haqqında məlumatları və şəxsiyyət vəsiqəsinin surətini DƏDRX-ə göndərməlidir ki, xidmətdən istifadə edə bilsin.

Məktubun nümunə forması üçün https://www.e-emdk.gov.az/Home/Notification -a baxa bilərsiniz.




**Şəkil 2.**

Bundan sonra əks olunan pəncərədən:
"RİTN tərəfindən verilmiş elektron imza kartı ilə daxil olmaq", "Elektron hökumət sistemi tərəfindən vətəndaşa verilmiş istifadəçi adı və şifrə ilə daxil olmaq", və s. sətrlərindən birini seçməlisiniz. (Şək.3)




**Şəkil 3**

"RİTN tərəfindən verilmiş elektron imza kartı ilə daxil olmaq" sətri seçildiyi halda elektron imza kartı, kart oxuyucusuna daxil edilmiş vəziyyətdə olmalıdır!

Yuxarıda qeyd olunanlardan hər hansı birini seçərək elektron xidmətə daxil olarkən, aşağıdakı elektron ərizə forması əks olunacaq. (Şək.4). Bu pəncərədə siz "*Ərizəçi haqqında məlumatlar*" bölməsində "Əlaqə telefonları", "Email" və "Reyestr nömrəsi" xanasına məlumatları daxil edib, "*Etibarnamə*", "*Ərizənin*

*məqsədi*”, “*Əmlak haqqında məlumat”, “İcra müddəti*” bölmələrində verilmiş boş sahələri xüsusi işarə vasitəsindən ▾ istifadə edərək doldurub, “*Ərizəyə əlavə olunmuş sənədlər*” bölməsində lazım olan bütün sənədləri yüklədikdən sonra

“**Dövlət rüsumunu ödə**” düyməsini basaraq növbəti səhifəyə keçidi təmin edəcəksiniz.


AZƏRBAYCAN RESPUBLİKASI
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ
Elektron Xidmətlər Portalı
Elektron xidmətlər \ Daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu
Ərizəçi haqqında məlumatlar
Adı:
Doğum tarixi:
Şəxsiyyət vəsiqəsi: AZE №
Əlaqə telefonları:
Email:
Sizinlə əlaqə telefonları və email vasitəsilə əlaqə saxlanacağına görə bu məlumatları dəqiq göstərməyiniz vacibdir
Etibarnamə
Hüquqi şəxs adından etibarnamə ilə çıxış edirəm
Hüquqi şəxsin VÖEN-i:
Hüquqi şəxsin adı:
Adından etibarnamə ilə çıxış etdiyiniz hüquqi şəxsin məlumatlarını dəqiq doldurun
Ərizənin məqsədi
Əmlak haqqında məlumatlar
Rayon:
Daşınmaz əmlakınızın yerləşdiyi rayonu seçin
Ərazi idarəsinin adı:
Reyestr nömrəsi:
Daşınmaz əmlakın dövlət reyestrindən ÇIXARIŞ-da göstərilmiş reyestr nömrəsini dəqiq və düzgün daxil edin
İcra müddəti
Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən lizinqin dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlamentin 1.7-ci maddəsinə əsasən lizinqin qeydiyyatı ərizənin qeydiyyat orqanına daxil edildiyi gündən 5 iş günü müddətində aparılır. Göstərilən xidmətlər sifarişçinin müraciəti əsasında qanunla müəyyən edilmiş icra müddətində və ya bu müddətin 2/3 və 1/3-i qədər müddətdə yerinə yetirilə bilər. Siz icra müddətinin seçimindən asılı olaraq Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurasının 2009-cu il 31 iyul tarixli 4 nömrəli Qərarında nəzərdə tutulmuş xidmət haqqı ödəyəcəksiniz.
İcra müddəti:
iş günü
Ərizəyə əlavə olunmuş sənədlər
Fiziki şəxslər: şəxsiyyəti təsdiq edən sənəd, notarial müqavilə
Hüquqi şəxslər: notarial qaydada və ya hüquqi şəxs tərəfindən təsdiq olunmuş etibarnamə, notarial müqavilə, hüquqi şəxsin qeydiyyat şəhadətnaməsi
Choose File No file chosen
Choose File No file chosen
Choose File No file chosen
Choose File No file chosen
Choose File No file chosen
Choose File No file chosen
Şəkillərin həcmi cəmi 3072 K-dan artıq olmamalıdır.
Lazımi sənədləri düzgün əlavə edin.
QEYDLƏR
"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 26.2-ci maddəsinə əsasən yüklülüyün (ipoteka, icarə, istifadə, lizinq, servitut və s.) dövlət qeydiyyatının aparılmasına görə 20 manat dövlət rüsumu ödəməlisiniz.
Növbəti mərhələdə GoldenPay ödəmə sisteminə qoşularaq onlayn qaydada ödəmə etməlisiniz.
GoldenPay
>>> Dövlət rüsumunu ödə
İmtina

**Şəkil 4.**

Bu səhifədə "*Kartın növü*" sətrində xüsusi işarə vasitəsilə ▼ ödəniş edəcəyiniz elektron kartın növünü seçərək "**Ödə**" düyməsi basmalınız. (Şək.5)




**Şəkil 5.**

Daha sonra açılacaq yeni formanın içində kartın üzərində olan nömrəni, CVV sətrində ödəniş kartının arxa tərəfində yerləşmiş xüsusi üç rəqəmli nömrəni, kartın bitmə tarixini (ay və il göstərilməklə) qeyd etməlisiniz. Plastik kartdakı məlumatlar düzgün formada müvafiq xanalara daxil edildikdən sonra "*İrəli*" düyməsindən istifadə etməlisiniz. (Şək.6)




**Şəkil 6.**

Uğurla tamamlanmış müraciətin sonunda istifadəçiyə “*Müraciətin qəbulu və dövlət rüsumunun ödənilməsi barədə təsdiqetmə bildirişi*” təqdim edilir. (Şək.7)

**MÜRACİƏTİN QƏBULU VƏ DÖVLƏT RÜSUMUNUN ÖDƏNİLMƏSİ BARƏDƏ TƏSDİQETMƏ BİLDİRİŞİ**

ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİNİN yanında DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİNİN
Bakı Şəhər Ərazi İdarəsi

| | |
|---|---|
| Təsdiqetmə bildirişinin verilmə tarixi | : 23.04.2013 11:02:16 |

ÖDƏNİŞ BARƏDƏ MƏLUMATLAR

| | |
|---|---|
| Ödənişin təyinatı | : Dövlət rüsumu |
| Ödənişin məbləği | : 10 AZN |

SİZİN MÜRACİƏTİNİZ QƏBUL OLUNDU

| | |
|---|---|
| Ərizənin qeydiyyat nömrəsi | : 1234567890 |
| Hazır olma tarixi | : 26.04.2013 |

N Ü M U N Ə

QEYDLƏR

Sizin əmlakınıza müayinə baxışı keçirilməlidir. Bunun üçün sizin göstərdiyiniz əlaqə vasitələrindən istifadə olunmaqla sizə məlumat veriləcəkdir.

Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurasının 2009-cu il 31 iyul tarixli 4 nömrəli Qərarına əsasən göstərilən xidmətlər üçün icra müddətindən asılı olaraq xidmət haqqı ödənilməlidir.

ƏMDK yanında DƏDRX-nin müvafiq ərazi idarəsinə göstərilmiş tarixdə arayış və yaxud çıxarışınızı almaq üçün gəldikdə xidmət haqqını ödəməlisiniz.

GƏLƏRKƏN SƏNƏDLƏRİN ƏSLİNİ VƏ ŞƏXSİYYƏTİNİZİ TƏSDİQ EDƏN SƏNƏDİ ÖZÜNÜZLƏ GƏTİRMƏYİ UNUTMAYIN!

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 5-ci maddəsinə əsasən müraciət etmiş şəxsə arayışın verilməsindən və yaxud bu Qanunun 15-ci maddəsinə əsasən hüquqların dövlət qeydiyyatından imtina edilə bilər. Bu halda sizə imtina barədə bildiriş göndəriləcəkdir. Bildiriş sizin şəxsi kabinetinizdə öz əksini tapacaq.

>>> Şəxsi kabinetə qayıt

**Şəkil 7.**